| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 30.09.2005 |
| QEYDİYYAT NÖMRƏSİ | 1021-IIQD |
| ADI | Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 02-11-2005, Nəşr nömrəsi: 254), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-2005, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 905) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 02.11.2005 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000<br>090.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 10, maddə 607) 15-ci maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilməsi barədə vəsatət qaldıran şəxs Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və məbləğdə dövlət rüsumu ödəyir."

II. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 12, maddə 740; 2002-ci il, 12, maddə 706; 2003-cü il, 1, maddə 23, 8, maddə 428, 12, I kitab, maddə 698; 2005-ci il, 1, maddə 1; 2005-ci il 10 iyun tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu) 14.14-cü maddəsində "qəbul edilmək" sözlərindən sonra ", bərpa edilmək" sözləri əlavə edilsin.

III. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2005-ci il
1021-IIQD